Türküstan



# Türk xalqlarının ortaq bayramı – Xızır Nəbi

**Kənan Hacı**

*İnsan düşüncəsi həmişə bahara can atır, təbiətin oyanışı insanın arzularının çiçəkləməsi prosesi ilə yanaşı davam edir. Bahar nəsimi düşüncələrə də sığal çəkir, damarda axan qan da çaylar kimi coşur-çağlayır. Dünyanı pəncərə sayan babalarımız, nənələrimiz eləcə bu pəncərədən baxıb getməyiblər, gəlib bu dünyaya gözəllik, müdriklik donu biçmiş, sözlə dünyanı, gözəl olan hər nə varsa, yaşarı ediblər. İnsan yarandığı gündən dirilik suyunun axtarışına çıxıb, İsgəndər Zülqərneyndən üzübəri çoxları bu abı-həyat çeşməsinin eşqiylə dünyanı gəzib-dolaşıblar. Dirilik çeşməsinin axtarışına çıxanlar ordan müdrik xalq bilgini kimi qayıdıblar.*

Deyirlər, Xızıra bu sudan içmək nəsib olub. Şərq - islam dini sistemində Xızır dirilik suyunu içdiyinə görə peyğəmbər statusu qazanmışdır. Hətta islamda onun Məhəmməd peyğəmbər (s.ə.s.) və Həzrət Əli ilə görüşməsi haqqında müxtəlif mülahizələr də var. 1647-ci ildə Azərbaycana gələn türk səyyahı Övliya Çələbi Xıdır-Zində pirini ziyarət etdikdən sonra "həmin türbədə yatan Xızırın bədəninin təzəliyinin hələ də qorunduğunu" bildirmişdi. 1858-1859-cu illərdə Qafqaza gəlmiş fransız Aleksandr Düma da həmin türbəni ziyarət etmiş və onun şirvanlıların müqəddəs hesab etdikləri bir ziyarətgah olduğunu yazmışdır.



*M.Təhmasibə görə, hətta Xəqaniyə, Nizamiyə yol göstərən, Xətainin əlindən tutan, Füzuliyə ilham və təxəllüs verən də Xızır övliyadır.*

*Xızır Xıdır Nəbi bayramının əsas iştirakçısı olmaqla yanaşı, həm də xalq yaradıcılığında geniş yayılmış mifoloji obrazdır. Əski inanclara görə, Xızır şəfa verən, xeyirxah varlıqdır. Qırğızların "Manas" dastanında Manasın dünyaya gəldiyi gündən Xızırın ona dualar etməyinin şahidi oluruq. Xalq dastanlarında, o cümlədən "Şah İsmayıl və Gülzar", "Tahir və Zöhrə" dastanlarında Xızır qəhrəmanlarınaçox müşkülləri aşmaqda yardım edir.*

Xızır Nəbi türkdilli xalqların kultuna çevrilmiş müqəddəs bir obrazdır. Mifoloji təfəkkürdən qaynaqlanan bu obraz xalq müdrikliyinin ümumiləşmiş arxetipi hesab oluna bilər. Mifin yaşaması həm də insanın yaşaması deməkdir. Şəxsiyyətin, təbiətin və toplumun harmoniyasını ifadə edən qədim miflər orta əsr insanları üçün bir növ, istinad nöqtəsi oldu. Xızır Nəbi də məhz belə istinad nöqtələrindən biridir. Xalqın Xızır Nəbi peyğəmbərə inamı o qədər güclü olub ki, onun adı and yerinə çevrilibmiş. Azərbaycan folklorunda Xızır Nəbiylə bağlı kifayət qədər geniş əsatirlər, əfsanələr mövcuddur. Tarixi mənbələrdə Xızır suyun, küləyin, havanın himayədarı kim təqdim olunur.

Xalqımızın milli ruhunun ifadəsi olan Novruz bayramının ən vacib elementlərindən biri də Xızır Nəbinin adıyla bağlıdır. İnanca görə, təbiətin oyanışı, həyatın başlanğıcı kimi qəbul edilən ünsürlər məhz Xızır Nəbinin gəlişi ilə ehya edir. Xızır Nəbi bayramı türk xalqları içərisində çox yayğındır, onlar bu törəni nəsildən nəsilə ötürür, yaşadırlar. Azərbaycanın da müxtəlif bölgələrində Xızır Nəbi bayramı keçirilir. Lakin qədim zamanlarda bu bayram təmtəraqla keçirilərmiş, əsl xalq törəninə çevrilərmiş. Sovet təbliğat mexanizmi türk xalqlarını öz milli köklərindən qoparmaq üçün Novruz bayramını da, Xızır Nəbini də yaddaşlardan silib atmağa çalışırdı və müəyyən mənada buna nail də olmuşdu.

Biz bu gün böyük fikir və düşüncə adamı, yazıçı, alim, ictimai xadim Şıxəli Qurbanovu minnətdar duyğularla xatırlayırıq. Onun Mərkəzi Komitədə yüksək vəzifə tutması nəticəsində Novruz şənliyi bütün əzəmətilə xalqın ruhundan fışqırdı. Bu bayram nəhayət, rəsmən xalq bayramı kimi qeyd olunmağa başladı. 1967-ci ilin martı yaddaşlara əbədi olaraq həkk olundu. Şıxəli Qurbanov qələm adamı idi, bir-birindən maraqlı povestlərin, hekayələrin, pyeslərin müəllifi idi. Həm də dövlət adamı idi, sovet nomenklaturasında yüksək pilləyə yüksəlmiş milli ruhlu nadir şəxsiyyətlərdən idi. Məhz onun iradəsi, qətiyyəti nəticəsində Bahar bayramı Novruz törəni kimi xalq içində ürək genişliyi ilə qeyd olunmağa başladı.

Bərpa, rekonstruksiya metodu türk mifinin və genetikasının spesifikliyini nəzərə almaqla gerçəkləşdi. Bahar qız xalqı salamlayıb Novruzun gəlişini bəyan etdi. Amma bu Bahar qızın yanında bir el ağsaqqalı çatmırdı. O da Xızır Nəbi idi. Xızır Nəbi nədənsə Novruz şənliyində həmişə epizodik rolda görünüb. Azərbaycanın bir çox bölgələrində Xızır Nəbi bayramı müxtəlif vaxtlarda keçirilib. Bu dövr əsasən, fevral ayına təsadüf edir. Kiçik Çillənin çıxması münasibətilə keçirilən Xıdır Nəbi bayramı həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır. Üç gündən ibarət olan Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp, xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç düzsüz kömbə bişirilib öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:



*Xıdır Nəbi, Xıdır İlyas*
*Bitdi çiçək, oldu yaz!*

Bayramın üçüncü günü cütcü və əkinçinin şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidən, odla yanaşı günəş və su, adamlara sağlamlıq gətirəcəyi düşünülərdi. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunar, "Xıdır Nəbi"yə nəğmələr, şerlər qoşulardı. Bayramın hər üç günündə cavanlar əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedərdi. Onlara "Xıdırçı" deyərmişlər. Xıdırçılar hava işıqlanmazdan əvvəl əllərində şam Xızırın dalınca gedər və nəğmələr oxuyardılar.

Bu bayram demək olar ki, bütün türk xalqlarında keçirilir. Daha çox Xıdırelləz, Hıdırelləz bayramı adı ilə tanınır. Hıdırelləz böyük çoxluqla Anadolu və Balkan türkləri arasında qeyd edilməkdədir. Qədimdən Ruzi-Hızır (Xızır günü), yəni Xıdırelləz xalq arasındakı inama görə Xızırla İlyasın bir araya gəlməsi xatirinə keçirilir. Bu bayram yeni təqvimə görə hər il 6 mayda qeyd olunur. Türkiyədə qədim təqvimə görə il ikiyə bölünür. 23 apreldən (6 may) 28 Oktyabrə (8 Noyabr) qədər 186 gün Hızır günləri adıyla yaz mərasimi, bu tarixdən təkrar mayın 6-a qədər qədər davam edir. Bu bayram Azərbaycanda Xızır Nəbi bayramı, İranda Əhli-haqq zümrələri arasında Zati Mutlaq ( Ali) şərəfinə Əli-Heydər adıyla, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır.

*Biz bu gün böyük fikir və düşüncə adamı, yazıçı, alim, ictimai xadim Şıxəli Qurbanovu minnətdar duyğularla xatırlayırıq. Onun Mərkəzi Komitədə yüksək vəzifə tutması nəticəsində Novruz şənliyi bütün əzəmətilə xalqın ruhundan fışqırdı. Bu bayram nəhayət, rəsmən xalq bayramı kimi qeyd olunmağa başladı. 1967-ci ilin martı yaddaşlara əbədi olaraq həkk olundu. Şıxəli Qurbanov qələm adamı idi, bir-birindən maraqlı povestlərin, hekayələrin, pyeslərin müəllifi idi. Həm də dövlət adamı idi, sovet nomenklaturasında yüksək pilləyə yüksəlmiş milli ruhlu nadir şəxsiyyətlərdən idi. Məhz onun iradəsi, qətiyyəti nəticəsində Bahar bayramı Novruz törəni kimi xalq içində ürək genişliyi ilə qeyd olunmağa başladı...*

İlahiyyatşünas alim, Şərq ədəbiyyatının bilicisi, tədqiqatçı, şair Hacı Soltan Əlizadənin təşəbbüsü ilə Xızır Nəbi bayramı hələ 2002-ci ildə Buzovnada keçirilmişdi. Hacı Soltan mədəniyyət tariximizdə bir çox ilklərə imza atmış tədqiqatçı alimdir. Onun "Şah İsmayıl Xətai", "Xətaişünaslığa hədiyyə" kitabları Xətaişünaslıq üçün əvəzsiz bir mənbədir. Ona qədər Azərbaycanda Xətai haqqında bu səviyyədə müfəssəl bilgilərlə zəngin bir kitab yazılmamışdı. O, boks kralı Məhəmməd Əli haqqında kitab yazmış ilk qələm adamıdır. Bu kitab Məhəmməd Əliyə çatanda xoş duyğular keçirmiş, özünü fotoalbomunu avtoqrafla Hacı Soltana bağışlamışdı. Onun müraciət etdiyi mövzular Azərbaycan mədəniyyətşünaslığında və ədəbiyyatşünaslığında demək olar ki, heç araşdırılmayıb. Kitablarının adını sadalamaq kifayətdir: "Azərbaycan dərvişləri və rövzəxanları", "İslam İdman Antologiyası", "Həzrət Əli və dünya ədəbiyyatı" və sair.

*Bu günlərdə Buzovnada, Ruhulla Axundov adına Mədəniyyət Evində Xızır Nəbi Beynəlxalq Folklor Festivalı dövlət səviyyəsində qeyd edildi. Əlbəttə, təşəbbüs Hacı Soltandan gəlmişdi və bu bayramın rəsmi şəkildə qeyd olunmasında onun əvəzsiz rolunu xüsusi qeyd etmək lazımdır.*

Bu bayram bir sıra özəllikləriylə yaddaqalan oldu. Tədbirdə Azərbaycan, Türk, Tatar, ləzgi, Avar, Özbək, Kazax və başqa türkdilli xalqların mətbəxi, geyimləri, əl işləri, musiqisi, poeziyası ümumi adət - ənənələri nümayiş olunurdu.Qafqaz Müsəlmanları İdarəsinin qazisi, axund, ədib Soltan Əlizadə, AYB-nin Xəzər bölməsinin sədri Arif Buzovnalı, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Səfirliyinin nümayəndəsi Nurettin Erdoğan, Mədəniyyət Mərkəzinin rəhbəri Qurbanəli Purmərcan, Tatarıstan Respublikasının Azərbaycandakı Daimi nümayəndəliyinin əməkdaşı Elmira Yusifli, Azərbaycanda yaşayan Axısxa türklərinin "Vətən" İctimai Birliyinin sədr müavini Mövlud Işık, həmin cəmiyyətin Saatlı, Sabirabad, Beyləqan bölgə rəhbəri Mühiddin Xəlilov bu bayramın əhəmiyyəti haqqında danışdılar. AYB-nin Xəzər Bölməsinin gənc şairləri Tahirə Bərraq, Kamal Hüseynzadə, Nicat Nəsri öz şeirlərini oxudular. Azad"rəqs qrupu, 26, 125, 234 nömrəli məktəblərin, 4 nömrəli uşaq incəsənət məktəbinin şagirdləri çıxışları ilə zövq oxşadılar.





Davul, zurna ifaçıları "Adıgün" türk folklor xalq kollektivinin üzvlərinin, Türk ilkokul folklor rəqs kollektivinin, ""Samur"Ləzgi Mədəni Mərkəzinin "Suvar" mahnı və rəqs ansamblının, solistlərdən Zavir Nəcəfovun, Cavahir Abdulovanın ifaları tamaşaçılarda xoş ovqat yaratdı.Fəxri qonaqlara xatirə hədiyyələri təqdim olundu.

***Xalqın min illik yaddaşından süzülüb gələn bu gözəl ənənəni dirçəltmək çox böyük işdir. Türkdilli xalqlar arasında bu bayram bir körpüyə çevriləcək. Bu faktın özü çox böyük ictimai, mədəni əhəmiyyət daşıyır. Bu qəbil tədbirlər sivilizasiyalararası dialoqa, multikultural dəyərlərin inkişafına güclü təkan verir və türkdilli xalqların bir-birinə daha da yaxınlaşmasına vəsilə olur. Buna görə Hacı Soltan Əlizadəyə və bu işdə ona dəstək olan bütün insanlara böyük təşəkkür düşür.***